

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 69 (21.479)

16 aprel 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Cənubi Qafqaz üzrə xüsusi nümayəndə Herbert Salber ötən səfərindən keçən az müddət sonra Avropa İttifaqı rəhbərliyinin tapşırığı ilə ölkəmizə yenidən səfər etməsinin aprelin əvvəlində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələrin daha yaxından öyrənilməsi ilə bağlı olduğunu deyib.

Söhbət zamanı qeyd olunub ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların tarixinə nəzər saldıqda, Ermənistan ordusunun qoşunların təmas xəttində vaxtaşırı silahlı təxribatlar törətməsi müşahidə olunur. Azərbaycanın cəbhə xəttinə yaxın yerləşən yaşayış məntəqələri mütəmadi surətdə Ermənistan tərəfindən atəşə tutulur, uşaqlar, qadınlar, qocalar da daxil olmaqla, mülki əhali həlak olur. Bildirilib ki, məqsəd münaqişə ilə bağlı mövcud vəziyyəti olduğu kimi saxlamaqdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslər, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, qanunçuluğun və hüquq qaydasının qorunmasında vətəndaşların geniş iştirakının təmin edilməsi, polis orqanlarına ictimai dəstəyin təşviqi, polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. "İctimai asayişin qorunmasında vətəndaşların iştirakı Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi vətəndaşların ictimai asayişin qorunmasında iştiraka cəlb edilməsi üçün zəruri tədbirlər görsün.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 aprel 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## İctimai asayişin qorunmasında vətəndaşların iştirakı QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda cəmiyyətdə polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi məqsədi ilə hazırlanmışdır və vətəndaşların ictimai asayişin qorunmasında iştirakı, habelə polis orqanları tərəfindən vətəndaşların könüllülük əsasında ictimai asayişin təmin olunması işinə cəlb edilməsi qaydalarını müəyyən edir.

1.2. "Polis haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq vətəndaşların ictimai asayişin qorunması ilə bağlı fəaliyyəti hüquqazidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısını almaq məqsədi ilə maarifləndirmə və təbliğat işinin aparılması, narkomaniyanın, alkoqolizmin, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası, habelə cinayətlərin və digər hüquqpozmaların qarşısının alınmasını və araşdırılmasını təmin etmək üçün zəruri məlumatların polis orqanlarına verilməsi istiqamətləri üzrə həyata keçirilir.

1.3. İctimai asayişin qorunmasında vətəndaşların iştirakı könüllülük, qanunçuluq, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin üstünlüyü, insanların şərəf və ləyaqətinə hörmət, müvafiq dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq və polis orqanlarının səlahiyyətlərinin əvəzlənməsinin yolverilməzliyi prinsiplərinə əsaslanır.

1.4. Vətəndaşların ictimai asayişin qorunmasında iştirakı digər şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır.

1.5. Vətəndaşları ictimai asayişin qorunması ilə bağlı onların həyat və sağlamlığına təhlükə yaradan fəaliyyətə cəlb etmək qadağandır.

1.6. İctimai asayişin qorunmasında iştirak edən vətəndaşlar özlərini polis orqanlarının vəzifəli şəxsi kimi təqdim edə, habelə bu Qaydada nəzərdə tutulmuş fəaliyyəti ictimai asayişin təmini ilə bağlı olmayan məqsədlərlə həyata keçirə bilməzlər.

**2. Vətəndaşların ictimai asayişin qorunmasında polis orqanları ilə əməkdaşlığı**

2.1. Vətəndaşların polis orqanları ilə əməkdaşlığı (polisə ictimai dəstək) onların həmin orqanların vəzifəli şəxslərinin rəhbərliyi altında ictimai asayişin qorunması üzrə vəzifələrin yerinə yetirilməsində iştirakını nəzərdə tutur.

2.2. Polis orqanları ilə əməkdaşlıq edən vətəndaşlar ictimai asayişin qorunması ilə bağlı aşağıdakı tədbirləri həyata keçirə bilərlər:

2.2.1. hüquqazidd əməllərə son qoyulması ilə bağlı vətəndaşlara və vəzifəli şəxslərə qarşı qanuni tələb irəli sürmək;

2.2.2. insanların həyat və sağlamlığına, ətraf mühitə zərər verə bilən təhlükəni aradan qaldırmaq, habelə əmlakın talanmasının və məhv edilməsinin qarşısını almaq;

2.2.3. ictimai asayişin pozulması, normal həyat fəaliyyətinə təhlükə yaradan hərəkətlər, onların başvermə səbəbləri və şəraiti barədə dəqiq məlumatı toplayıb polis orqanlarına təqdim etmək;

2.2.4. ictimai asayişin qorunması sahəsində polis orqanları tərəfindən həyata keçirilən tədbirlərdə iştirak etmək;

2.2.5. əhalinin hüquqi maarifləndirilməsində iştirak etmək;

2.2.6. qanunvericiliyə zidd olmayan digər tədbirlər həyata keçirmək.

**3. İctimai asayişin qorunmasında polis orqanları ilə əməkdaşlığın xüsusiyyətləri**

3.1. Polis orqanları ilə əməkdaşlığa şəxsi və işgüzar keyfiyyətlərinə görə fərqlənən, müddətli həqiqi hərbi xidmət keçmiş (qadınlar istisna olmaqla), yaşı 20-dən az və 24-dən çox olmayan Azərbaycan Respublikası vətəndaşları könüllülük əsasında cəlb edilə bilərlər.

3.2. Polis orqanları ilə əməkdaşlığın təşkili qaydası Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilir.

3.3. Aşağıdakı şəxslər polis orqanları ilə əməkdaşlığa cəlb edilə bilməzlər:

3.3.1. cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş şəxslər;

3.3.2. psixi xəstəliklə, narkomanlıqla, alkoqolizmlə bağlı müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan şəxslər;

3.3.3. fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə təsdiq edilmiş şəxslər;

3.3.4. inzibati xəta törətdiyinə görə barəsində son bir il ərzində inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslər.

3.4. Polis orqanları ilə əməkdaşlıq edən şəxslər fəaliyyətə başlamazdan əvvəl müvafiq hazırlıq keçirlər.

3.5. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi polis orqanları ilə əməkdaşlıq edən şəxsləri xüsusi geyim forması, döş nişanı və vəsiqə ilə təmin edir.

3.6. Polis orqanları ilə əməkdaşlıq edən şəxslərin fəaliyyəti bu məqsədlər üçün Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə ayrılan dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

3.7. Polis orqanları ilə əməkdaşlıq edən şəxslərlə onların hüquq və vəzifələrini, sosial və digər təminatlarını müəyyən edən müqavilə bağlanır.

3.8. Polis orqanları ilə əməkdaşlıq edən şəxslər ictimai vəzifələrini yerinə yetirərkən dövlət tərəfindən müdafiə olunurlar.

3.9. Polis orqanları ilə əməkdaşlıq edən şəxslərə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən olunmuş təminatlar şamil edilir.

3.10. Daxili işlər orqanlarında xidmətə qəbul zamanı ictimai asayişin qorunmasında 2 il ərzində polis orqanları ilə əməkdaşlıq etmiş şəxslərə üstünlük verilir.

3.11. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi polis orqanları ilə əməkdaşlıq edən şəxsləri həvəsləndirmə qaydasında mükafatlandıra bilər.

3.12. Polis orqanları ilə əməkdaşlıq edən şəxslər xüsusi xidmətlərinə, göstərdikləri fədakarlıq və cəsarətə görə dövlət təltiflərinə təqdim edilə bilərlər.

## İstehlakçılar təbii qazla fasiləsiz təmin edilir

*Muxtar respublikada enerji təhlükəsizliyi tam təmin edilmiş, bütün yaşayış məntəqələri, istehsal və xidmət sahələri qazlaşdırılmışdır. 2016-cı ilin birinci rübündə də bu sahədə işlər davam etdirilmiş, 362-si əhali, 53-ü qeyri-əhali olmaqla, 415 müxtəlif təyinatlı obyektlərə yeni qaz xətləri çəkilmiş, muxtar respublika üzrə təbii qaz istehlakçılarının ümumi sayı 86 mini ötmüşdür.*

"Naxçıvanqaz" İstehsalat Birliyi qaz verilişində fasilələrin yaranması üçün müvafiq tədbirlər görür, təhlükəsizlik məsələlərini daim diqqət mərkəzində saxlayır. Ötən dövrdə də magistral qaz kəmərlərində elektrokimyəvi mühafizə qurğularına mütəmadi nəzarət edilmiş, korroziyaya uğrayan hissələr yenilənmişdir. Korroziyaya uğramış boruların dəyişdirilməsi, yol-tikinti, yenidənqurma və abadlaşdırma işlərinin aparılması ilə əlaqədar olaraq 47 min 463 paqonometr müxtəlif diametrli boru istifadə edilmişdir. Həmçinin "Naxçıvanqaz" İstehsalat Birliyində nəzarət-ölçü cihazlarının yoxlanma və kalibr edilməsi laboratoriyası qurulmuşdur.

İlin əvvəllərində tələbatın artması nəzərə alınaraq sistemin daha artıq yüklənməsi və gərgin işləməsinə qarşı tədbirlər görülmüş, qaz kəmərlərinə xətti nəzarət edilmişdir. İlin birinci rübündə qəza dispetçer xidmətləri 6 min 218 sızma aşkarlayaraq aradan qaldırmış, istismara yararsız olan qaz sayğacları yenilənmişdir. Naxçıvan şəhərində smartkarttipli sayğacların quraşdırılması işi davam etdirilmiş, rüb ərzində 345 yeni qaz sayğacı istismara verilmişdir.

Birliyin əməkdaşları ötən aylar ərzində müvafiq qurumlarla birlikdə muxtar respublika ərazisində reydləri davam etdirmiş, aşkar olunan nöqsanlar aradan qaldırılmış, təbii qazdan təhlükəsiz istifadə qaydaları haqqında maarifləndirmə işi gücləndirilmişdir. Həmçinin kadr potensialının artırılması, qaz istismarı sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılmışdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir.***



18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

# Naxçıvanda tarixi-mədəni irsin qorunub saxlanılması diqqət mərkəzindədir

***YUNESKO-nun Abidələrin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının qərarı ilə hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur.***

Tarix və mədəniyyət abidələrinin qorunmasını bütün ölkə vətəndaşlarının əsas vəzifələrindən hesab edən ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq bu sahəyə böyük diqqət göstərmişdir. Müstəqillik dövründə isə ümummilli liderimiz bu sahədə kompleks tədbirlər həyata keçirmiş, tarixi-mədəni irsimiz elmi şəkildə öyrənilməyə başlanılmışdır. 1998-ci il aprelin 10-da "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması bu sahədə qanunvericilik bazasının yaradılmasına, həyata keçirilən tədbirlərin daha geniş miqyas almasına və yüzlərlə tarixi abidəyə yenidən həyat verilməsinə səbəb olmuşdur.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirərək tarix və mədəniyyət abidələrinin bərpasına diqqət və qayğı göstərir. Son illər bu sahədə işlər daha da genişləndirilmiş, abidələrimizin bir çoxu YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Ölkə başçısının 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın təsdiq olunması da tarixi abidələrin qorunması, bərpası, öyrənilməsi və təbliği istiqamətində görülən işlərin davamıdır.











Azərbaycanın ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan xalqımızın tarixi keçmişini parlaq şəkildə əks etdirən mağaralar, yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəlləri və türbələrlə zəngindir. Bu abidələr nəinki Azərbaycan tarixini öyrənmək, həmçinin Cənubi Qafqaz və Yaxın Şərqdə baş verən tarixi-mədəni prosesləri izləmək baxımından olduqca əhəmiyyətlidir. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixin canlı şahidi olduğunu bildirərək demişdir: ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".***

Muxtar respublikanın zəngin tarixi-mədəni və dini abidələrinin öyrənilməsi, tədqiqi və təbliğinə xüsusi diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2001-ci ildə "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamış və buna uyğun olaraq Azərbaycan alimlərindən ibarət ekspedisiya yaradılmışdır. 2005-ci ildə isə Gəmiqaya abidəsinə yeni beynəlxalq elmi ekspedisiya cəlb edilmişdir. Ekspedisiyaların apardığı uğurlu tədqiqat işi nəticəsində Gəmiqaya haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə yazılaraq bu abidənin ilk insan məskəni olduğu sübuta yetirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra muxtar respublikada bu sahəyə diqqət daha da artırılmış, tarix və mədəniyyət abidələri qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Tarix və mədəniyyət abidələrinin, o cümlədən arxeoloji abidələrin tədqiqi Azərbaycan tarixinin bir sıra mühüm məsələlərinə yenidən nəzər salmağa imkan vermiş, tariximizin qaranlıq səhifələri üzə çıxarılmışdır.

Muxtar respublika ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması ilə yanaşı, onların bərpası da diqqət mərkəzində saxlanılır. Son illər Möminə xatın türbəsi konservasiya edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh türbələri, Naxçıvan şəhərindəki və Şərur rayonundakı imamzadələr, muxtar respublika ərazisindəki "Buzxana" abidələri, "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Naxçıvanqala və digər tarixi abidələr əsaslı bərpa olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" sərəncamları tarixi-mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

"Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamı Naxçıvanın tarixi abidələrinin qorunması və kompleks şəkildə öyrənilməsinə göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Artıq Naxçıvanın bənzərsiz və özünəməxsus müdafiə istehkamı olan Əlincəqalada bərpa işləri başa çatdırılmış, giriş qapıları, bürclər, qala divarları, qədim yaşayış yerləri, hovuzlar, səngər və mühafizə yerləri əvvəlki tarixi görkəmi saxlanılmaqla bərpa olunmuşdur. Burada "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması isə qala müdafiəçilərinin yaşayışı və qəhrəmanlıq tarixinin öyrənilməsinə öz töhfəsini verəcəkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 8 oktyabr tarixli Sərəncamına əsasən, hazırda Culfa rayonu ərazisindəki Gülüstan tarixi abidəsinin bərpası davam etdirilir.

Son illər muxtar respublikada tarixi abidələrin bərpası və təbliği istiqamətində aparılan məqsədyönlü işlər dünya ictimaiyyətinin də Naxçıvanın zəngin abidələrinə marağını artırmış, bu qədim diyarın 5 minillik şəhər tarixi beynəlxalq ekspedisiyaların da diqqətini cəlb etmişdir. 2006-cı ildən başlayaraq Naxçıvanda ondan artıq arxeoloji ekspedisiya fəaliyyət göstərir ki, onların ikisi beynəlxalq ekspedisiyadır. Beynəlxalq ekspedisiyaların fəaliyyəti Azərbaycan, o cümlədən Naxçıvan abidələri haqqında həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasında mühüm əhəmiyyətə malikdir. Son illər I Kültəpə, Ovçular təpəsi, Duzdağ, Qızqala və Oğlanqala abidələrində aparılan tədqiqatlar Naxçıvan tarixi ilə bağlı yeni elmi məlumatları aşkara çıxarmışdır.

Tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində görülən işlər artıq öz bəhrəsini verir. Bunun nəticəsidir ki, Naxçıvan bu gün dünyada ilkin yaşayış məskənlərindən biri kimi qəbul edilir. 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan", 2009-cu ildə "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", 2011-ci ildə "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", 2012-ci ildə "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında beynəlxalq simpoziumların keçirilməsi mühüm əhəmiyyətə malik olmuşdur. Muxtar respublikanın tarixi yerlərinə ekspedisiyalar təşkil olunmuş, alimlərimiz xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına və folkloruna dair tədqiqatlar aparmış, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələr nəşr edilmişdir. Bir sözlə, beşminillik tarixə malik Naxçıvan şəhər mədəniyyəti əsas tədqiqat mövzusuna çevrilmişdir. Bu tədqiqatların nəticəsi və elmi sübutu olaraq "Naxçıvan Abidələri Ensiklopediyası"nın nəşr olunması yalnız Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın mədəniyyət tarixində mühüm hadisədir. Son illər çap olunan "Naxçıvan tarixi atlası", "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvanda arxeoloji tədqiqatlar", "Naxçıvan tarixi" çoxcildliyi və digər kitablar da Naxçıvanın tarixi, bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından əvəzolunmaz elmi mənbələrdir.

Abidələrin bərpası və təbliği tarixi keçmişimizin öyrənilməsi, mədəni irsimizin qorunması ilə yanaşı, turizmin inkişafına da mühüm töhfələr verir. Naxçıvanın tarixi abidələri öyrənildikcə, dünya ictimaiyyətinə çatdırıldıqca muxtar respublikanın turizm potensialı da durmadan artır, hər il minlərlə turist bu diyarın zəngin abidələrinin sorağına gəlir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə tanışlıq turizminin ən ideal məkanlarındandır. Muxtar respublikada tarixi abidələrin bərpası, geniş tədqiqi və təbliği turistlər tərəfindən rəğbətlə qarşılanır. Naxçıvanda səfərdə olan qonaqlar öz vətənlərinə döndükdən sonra muxtar respublikanın tarixi-mədəni abidələri haqqında məqalələr yazır, öz təəssüratlarını həmvətənləri və dünya ictimaiyyəti ilə bölüşürlər.



***Tarixi abidələr xalqımızın keçmişini, mədəni irsini və həyat tərzini özündə yaşadır. Buna görə də tarixi və mədəni irsi qorumaq hər birimizin vətəndaşlıq borcudur.***

**Vəli BAXŞƏLİYEV**
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*

Qəmbər Hüseynli – 100

# Unudulmaz mahnılar müəllifi

***Ölkə Prezidenti cənab İlham Əliyev 25 noyabr 2015-ci ildə "Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il 2 dekabr tarixli Sərəncamı ilə "Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" nı təsdiq etmişdir. Tədbirlər planında muxtar respublikamızda Qəmbər Hüseynlinin 100 illik yubileyi ilə bağlı AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Bəstəkarlar Təşkilatı, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Musiqi Kolleci və kütləvi informasiya vasitələri tərəfindən bir sıra tədbirlərin və işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.***



1916-cı il aprelin 16-da qədim Gəncədə dünyaya göz açan Qəmbər Hüseynli qısa həyat və yaradıcılıq yolu keçsə də, həyatın sərt sınaqları ilə qarşılaşsa da, milli musiqi sənətimizə təkrarsız və özünəməxsus çalarlar gətirmiş, öz əsərləri ilə qəlbləri fəth edə bilmişdir. Muğam və el havalarını, aşıq musiqisini, Azərbaycan poeziyasını dərindən mənimsəyən bəstəkar həm də fitri istedadı sayəsində gözəl mahnılar və romanslar müəllifi kimi tanınmışdır.

Mahnı incəsənətin, musiqinin ən geniş yayılmış növü kimi qiymətləndirilir. Mahnılarda, nəğmələrdə insanların arzu və idealları, incə və ülvi hissləri tərənnüm olunur. Qəmbər Hüseynli də professional musiqi tariximizə məhz mahnı bəstəkarı kimi daxil olmuş, bütün yaradıcılığı boyu bu janra sadiq qalmış, vokal əsərləri ilə musiqimizə töhfələr vermişdir.

Müasirləri və bəstəkarın irsinin araşdırıcıları qeyd edirlər ki, Qəmbər Hüseynli mahnı yaradıcılığında həmişə estetik prinsipləri diqqətdə saxlayırdı. Sözün gözəlliyini, təsir qüvvəsini gözəl musiqi ilə vəhdətdə təqdim etmək bəstəkarı daim düşündürən sənət məsələlərindən idi. Bəstəkar özü də qeyd edirdi ki, musiqi ilk notlardan dinləyicidə gözəllik duyğusu oyatmırsa, qəlbdə həyəcan yaratmırsa, bəstəkarlıq etməyə dəyməz. Yüksək zövq, musiqi ilə bərabər, sözə də tələbkar olmaq onun əsas sənət prinsiplərindən idi. Buna görə də Qəmbər Hüseynlinin mahnıları və romansları bu gün də sevilə-sevilə dinlənilir. Bəstəkar həm klassik, həm də çağdaş Azərbaycan poeziyasının tanınmış şairlərinin şeirlərinə dəyərli musiqilər bəstələmişdir. Onun onlarla şairimizin sözlərinə yazdığı mahnılar və romanslar bu gün də müğənnilərimiz tərəfindən sevilə-sevilə ifa olunur.

Qəmbər Hüseynli yaradıcılığında məhəbbət lirikasının öz yeri vardır. Onun lirikası insanın ülvi duyğularının tərcümanıdır. Bəstəkarın bütün mahnılarında sözlə musiqinin sıx vəhdəti, melodiyaların şairanəliyi, ürəyəyatımlılığı, zərifliyi və axıcılığı diqqəti cəlb edir. Onun əsərlərində melodiya mahnının sanki canını təşkil edir. Yüksək ilham, harmoniya və orkestrləşdirmə onun yaradıcılıq yolunun düsturudur.

Bəstəkarın hələ 23 yaşında Cəfər Cabbarlının sözlərinə yazdığı "Tellər oynadı" romansı musiqi aləminə yeni istedadın gəldiyindən xəbər verirdi.

Qəmbər Hüseynlinin mahnı yaradıcılığının inciləri sayılan "İlk məhəbbət", "Gülə-gülə", "Ay işığında", "Dağlar", "Qonşuda qız sevənin", "Yar yanında günahkaram", "Gecələr uzanaydı", "Düşür yadıma", "Nə vaxta qaldı", "Sənsən", "Ceyran", "Dolanım başına", "Tel nazik", "Söz olur", uşaqlar üçün yazdığı "Salam, doğma məktəb", "Qaranquşla söhbət", "Dovşanım", "Uşaq və buz", "İdmançılar mahnısı", dillər əzbəri olan və dünyanın 100-dən çox ölkəsində səslənmiş "Cücələrim" nəğməsi musiqimizdə mahnı janrının qızıl fonduna daxil olmuş sənət əsərləridir. Dünyanı qarış-qarış dolaşan "Cücələrim" mahnısı haqqında böyük bəstəkar Fikrət Əmirov demişdir: "Əgər Qəmbər Hüseynli ömrü ərzində tək bircə "Cücələrim" i yazsaydı, yenə kifayət edərdi ki, onu musiqi sənətimizin korifeyi kimi tanısınlar və sevsinlər".

Bəstəkarın mahnılarını tanınmış Azərbaycan müğənniləri Şövkət Ələkbərova, Lütfiyar İmanov, Mirzə Babayev, Sara Qədimova, Əbülfət Əliyev, Fatma Mehrəliyeva, Gülağa Məmmədov, Rübabə Muradova, Nərminə Məmmədova, Məmməd Salmanov, Rahilə Həsənova və başqa müğənnilər özünəməxsus şəkildə ifa etmişlər. Bu gün də Qəmbər Hüseynlinin mahnıları Nuriyyə Hüseynova, Gülyaz Məmmədova, Eytiram Hüseyinov, Nəzakət Teymurova, Təyyar Bayramov, Sabir Əliyev, Aytən Məhərrəmova, Firuz Səxavət, Şahnaz Haşımova, Sədaqət Ulduz, Bəyimxanım Mirzəyeva, İlahə Əfəndiyeva, Ayşən Mehdiyeva və başqaları tərəfindən sevilə-sevilə oxunur. Bəstəkarın bir sıra mahnıları İran və Türkiyə müğənniləri tərəfindən də sənətkarlıqla ifa edilməkdədir.

Onun musiqi əsərləri içərisində müxtəlif janrlarda yazılmış musiqilərə də rast gəlmək mümkündür. Qəmbər Hüseynli hələ çox gənc ikən Gəncədə yaşayarkən Hüseyn Cavidin "Şeyx Sənan", Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Cəfər Cabbarlının "Almas", "Solğun çiçəklər", Zeynal Xəlilin "Qatır Məmməd" və başqa əsərlərə musiqi bəstələmişdir. Sonralar isə bəstəkar tanınmış şair Mirmehdi Seyidzadənin "Qızılquş" poeması əsasında opera yazmışdır.

Tədqiqatçılar Qəmbər Hüseynlinin yaradıcılığından çox yazsalar da, bəzən bəstəkarın ömür yolunun çətinliklərindən, əziyyətlərindən az söhbət açırlar. O, hələ çox gənc ikən Stalin repressiyasının acılarını yaşamışdır. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad kimi görkəmli şairlərimizin haqsız yerə məhvinə dözə bilməyən gənc Qəmbərin etirazı onun da həbsinə səbəb olmuşdu. 1943-cü ildə həbs edilən bəstəkara 10 il həbs cəzası vermişdilər. Lakin həbsxanada özünü yaxşı apardığı, həm də burada məhkumlardan ibarət ansambl yaratdığı üçün onu 1947-ci ildə həbsdən azad etmişlər. Xalq şairimiz Bəxtiyar Vahabzadə ilə bu illərdə tanış olan bəstəkar sonralar dostunun şeirlərinə musiqi bəstələmişdir. Bəxtiyar Vahabzadə isə bəstəkarın və özünün hansı qorxuların, əzab-əziyyətlərin şahid olduğunu, repressiya illərinin məşəqqətlərini 1988-ci ildə yazdığı "İki qorxu" poemasında sənətkarlıqla təsvir etmişdir. Görkəmli bəstəkar Qəmbər Hüseynlinin xatirəsinə həsr edilən poema poeziyamızda gözəl mahnılar müəllifinə həsr edilmiş ilk irihəcmli əsər kimi də qiymətləndirilə bilər:

*Mənim dostum idi, mahnılarından*
*Torpaq ətri gələn bəstəkar Qəmbər.*
*Dillərdə gəzərdi bizim bir zaman*
*Qoşa yazdığımız şirin nəğmələr...*
*Şeiri dönə-dönə o, oxuyardı,*
*Sözün nəğməsinə dalar, uyardı.*
*Sonra dindirərdi astadan tarı,*
*Muğam naxışları, muğam xalları*
*Süzülüb axardı barmaqlarından*
*Külçə götürərdi söz dağlarından,*
*Alardı ilhamı sözdən, şeirdən,*
*Sənət meydanında çapan bəstəkar*
*Muğamdan nəğməyə keçərdi birdən*
*Şeirin nəğməsini tapan bəstəkar.*

"İki qorxu" poemasında bəstəkarın həmin illərdəki ağır güzəranına işarə edilir, onun həbsi ilə bağlı səbəblərdən poetik dillə bəhs olunur. Bəxtiyar Vahabzadənin "İki qorxu" poeması şairin şəxsi dostluğu nəticəsində meydana çıxan əsər, bəstəkarla bağlı olan həyat hekayəsi kimi maraqla oxunur.

Qəmbər Hüseynli yaradıcılığı haqqında danışarkən ədəbiyyat, mədəniyyət, incəsənət tariximizdə qısa ömür yaşamış Mikayıl Müşfiq, Ərtoğrol Cavid, Asəf Zeynallı, Ülvi Rəcəb və başqa neçə-neçə sənətkarımız yada düşür. Onlar o qədər uzun ömür yaşamasalar da, öz həyat və yaradıcılıqları ilə insanlara sevinc, həyatsevərlik duyğuları bəxş etməyi bacaran şəxsiyyətlər kimi, xalqımızın sevimli sənətkarları kimi tanınırlar. Öz yaradıcılıqları ilə ölümə qalib gələn sənətkarlar həmişə xatırlanır və sevilir. Qəmbər Hüseynli də öz musiqisi və əyilməz ömür yolu ilə daim xatırlanacaq, onun mahnıları seviləcəkdir.

Qəmbər Hüseynlinin həmkarı, dostu, Xalq artisti, bəstəkar Süleyman Ələsgərovun unudulmaz sənətkar haqqında dediyi sözlər bir daha yada düşür: "Əsrlər ötüb keçəcək, amma xalqımız səni heç vaxt unutmayacaq. Hər dəfə "Nədən oldu", "Sənsən", "Söz olur", "Sonalar kimi", "İlk məhəbbət", "Dolanım başına", "Yar yanında günahkaram", ümumiyyətlə, 100-dən çox mahnıların, romansların səslənəndə sənin parlaq obrazın, nurlu çöhrən gözlər önündə canlanacaq. Sənin "Ay işığında" mahnının xoş sədasından vətəni yalnız Şuşa olan xarı bülbül çiçəyi də titrəyir, elə bil ki, dil açıb danışmaq istəyir. Qardaş, sənətkar ölmür, sədacə olaraq, dünyasını dəyişir"...

**Əli RZAYEV**

## *"Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu"* mövzusunda konfrans keçirilib

***Aprelin 15-də Naxçıvan Dövlət Filarmoniyasında "Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu" mövzusunda AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, Bəstəkarlar Təşkilatının, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin təşkilatçılığı ilə görkəmli bəstəkar Qəmbər Hüseynlinin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.***





Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 25 noyabr 2015-ci ildə "Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sərəncamdan irəli gələn vəzifələrin muxtar respublikada da həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2 dekabr 2015-ci il tarixli Sərəncamla "Bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nı təsdiq edib. Tədbirlər planında "Azərbaycan musiqi mədəniyyətinin zənginləşməsində Qəmbər Hüseynlinin rolu" mövzusunda konfransın keçirilməsi də öz əksini tapıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov "Bəstəkar Qəmbər Hüseynlinin həyat və yaradıcılığı", Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov "Qəmbər Hüseynlinin Azərbaycan musiqisinin inkişafında rolu", Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilov "Qəmbər Hüseynlinin Azərbaycan peşəkar musiqisində tutduğu mövqe", Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova "Qəmbər Hüseynlinin yaradıcılığının ümumi xüsusiyyətləri" mövzularında məruzələrlə çıxış ediblər.

Qeyd olunub ki, görkəmli bəstəkar Qəmbər Hüseynli qədim Gəncədə dünyaya göz açıb. 1925-ci ildə Gəncədəki birinci dərəcəli məktəbdə təhsil almağa başlayanda o, Seyid Əzimin, Abbas Səhhətin, Sabirin, Aşıq Ələsgərin şeirlərini, xalq yaradıcılığımızın inciləri olan bayatıları bilirdi. Bir tərəfdən Gəncənin ədəbi-bədii mühiti, digər tərəfdən Gəncəyə yaxın olan Qarabağın musiqi dünyası onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərib. Bəstəkarın bəstələdiyi çoxsaylı mahnılar bu gün də dillər əzbəridir və respublikamızın tanınmış müğənnilərinin repertuarından düşmürlər.

Bildirilib ki, 1961-ci ildə dünyasını dəyişən, bu gün Gəncədə adına park, musiqi məktəbi, mahnı teatrı olan Qəmbər Hüseynli qısa ömründə əsl yaradıcılıq fədakarlığı göstərmiş bəstəkarlardandır desək, səhv etmərik. Onun əsərləri içərisində mahnı da, simli kvartet, fortepiano üçün pyeslər, teatr tamaşalarına musiqilər də var. Qəmbər Hüseynli o qədər uzun ömür yaşamasa da, öz əsərləri ilə gələcək nəsillərə həm də Vətən sevgisi, təbiətimizə, el-obamıza məhəbbət hissi dolu olan zəngin musiqisini yadigar qoyub.

Konfransın bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyası Qəmbər Hüseynlinin əsərlərindən ibarət konsert proqramı ilə çıxış edib.

**Nərgiz İSMAYILOVA**

## Sədərək rayonunda keçirilən növbəti əmək yarmarkasında 14 nəfərə işə göndəriş verilib



Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il yanvarın 11-də imzaladığı Sərəncam ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" muxtar respublikamızda sahibkarlığın, xüsusən kiçik sahibkarlığın inkişaf etdirilməsinə, yeni ehtiyatlar hesabına iş yerlərinin açılmasına, regionlardakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə hazırlanan yeni proqram müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək bazarına uyğunlaşdırılması və işaxtaranların sosial müdafiəsi üçün yeni imkanlar yaradır.

Həsən Nəsirov bildirib ki, dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər.

Sədərək Rayon İcra Hakimiyyətinin nümayəndəsi Bəxtiyar Mahmudov çıxışında rayonun sosial-iqtisadi inkişafından söz açıb. Qeyd edib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Muxtar respublikamızda da əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilir, insan amilinə qayğı prioritet vəzifəyə çevrilir. Bu istiqamətlərdə muxtar respublikada, eləcə də Sədərək rayonunda görülən işlər təqdir edilir.

İşaxtaran vətəndaşlar yarmarkanın təşkilində əməyi olanlara minnətdarlıq edərək bildiriblər ki, vətəndaşların müvafiq işlərlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyəti böyükdür.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 89 boş iş yerinin çıxarıldığı tədbirdə 14 nəfərə işə göndəriş verilib.

Qeyd edək ki, növbəti əmək yarmarkası aprelin 19-da Kəngərli rayonunda keçiriləcəkdir.

**Rauf ƏLİYEV**

## “Kitab bilik mənbəyidir” müsabiqəsinin qalibləri

***Xəbər verdiyimiz kimi, ötən həftə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil, peşə və orta ixtisas məktəblərində təhsil alan şagird, tələbə və müdavimlər arasında keçirilən “Kitab bilik mənbəyidir” adlı müsabiqəyə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Yazıçılar Birliyi və “Şərq qapısı” qəzeti redaksiyasının birgə təşkil etdiyi müsabiqədə daha çox bədii ədəbiyyat oxumuş, hazırcavab, geniş dünyagörüşə malik olan istedadlı uşaq, yeniyetmə və gənclər iştirak ediblər. Müsabiqə ümumtəhsil məktəblərinin I-IV, V-VIII, IX-XI sinif şagirdləri, digər təhsil müəssisələrinin isə müdavim və tələbələri arasında 6-10, 10-15 və 15 yaşdan yuxarı qruplar üzrə fərdi qaydada keçirilib. Birinci mərhələdə qalib çıxan ümumtəhsil məktəbi hər yaş qrupu üzrə 2 nəfər olmaqla, 6 şagird ilə, digər təhsil müəssisələri isə 3 nəfər ilə təmsil olunublar. Məlumat üçün bildirək ki, sorğu anketinə daxil edilmiş hər sual 5 balla qiymətləndirilib. Sualların cavablandırılmasına 60 dəqiqə vaxt verilib. Müsabiqə iştirakçısı oxumuş olduğu daha çox kitaba dair sualları düzgün cavablandırmaqla yüksək bal qazanıb. Aprelin 8-də Təhsil Nazirliyində qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Qeyd edək ki, 27 nəfər müsabiqənin qalibi olub. Müsabiqədə birinci yeri tutan yeniyetmə və gəncləri oxucularımızla yaxından tanış etmişik. Bu dəfə isə ikinci yerin sahiblərini oxucularımıza təqdim edirik.***

*Nərgiz HACIYEVA:* – 2001-ci ildə Naxçıvan şəhərində anadan olmuşam. 2007-ci ildə birinci sinfə qəbul edilmişəm. Hazırda Naxçıvan şəhərindəki 17 nömrəli tam orta məktəbin IX sinfində təhsil alıram. Əlaçıyam. Texniki fənlərə marağım daha çoxdur. Bununla belə asudə vaxtlarımda mütaliə etməyi çox sevirəm. Mütaliəyə maraqgöstərən insanların geniş dünyagörüşə, zəngin söz ehtiyatına, səlis nitq qabiliyyətinə malik olmaları danılmaz faktdır. Belələri həmçinin həyatda rastlaşdıqları çətinliklərdən baş çıxarmaq, düzgün qərar qəbul etmək qabiliyyətinə malik olurlar. Cəlil Məmmədquluzadənin “Anamın kitabı”, Daniel Defonun “Robinzon Kruzo”, Viktor Hüqonun “Səfillər”, Ernest Heminqueyin “Əcəl zəngi” və başqa kitabları maraqla oxumuşam.



Belə bir tədbirin təşkil olunması məni çox sevindirdi. Onu deyim ki, bu gün məktəblilərin mütaliə ilə məşğul olması üçün hərtərəfli imkanlar yaradılıb. Bizim məktəbimizin kitabxanası zəngindir. Klassik və müasir Azərbaycan, həmçinin dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri mütaliəsevər hər bir məktəbli üçün qiymətli hədiyyədir. Odur ki, hər birimiz bu kitabların dəyərini bilməli, onları oxumağa maraq göstərməliyik.

*Fidan HACIYEVA:* – Mən 2006-cı ildə Xaçmaz rayonunun Qoçaqlı kəndində anadan olmuşam. Atam hərbçidir. Naxçıvanda qulluq edir. Bununla əlaqədar olaraq ailəmiz Naxçıvan şəhərində yaşayır. Mən Naxçıvan Qarnizonu tam orta məktəbinin IV sinfində təhsil alıram. Evimizdə mütaliəyə maraq çoxdur. Bəlkə də bu səbəbdəndir ki, mən də kitab oxumağa həvəsliyəm. Daha çox nağılları sevirəm. Bu nağıllarda insanların göstərdikləri qəhrəmanlıq səhnələrini maraqla oxuyuram. “Azərbaycan uşaq ədəbiyyatı antologiyası”, “Azərbaycan xalq nağılları”, Süleyman Sani Axundovun “Seçilmiş əsərləri”, “Asiya xalq nağıl və əfsanələri”, Lindali Rottonun “Yuxuların çin olduğu yerdə” və başqa kitabları oxumuşam. Mütaliə dərslərimi yaxşı oxumaqda da mənə köməkdir.



Müsabiqədə ikinci yerə çıxmağım məni kitab oxumağa daha da həvəsləndirib.

*Siyavuş BAĞIROV:* – 2003-cü ildə Naxçıvan şəhərində anadan olmuşam. 2009-cu ildə Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbin birinci sinfinə getmişəm. Hazırda VII sinifdə oxuyuram. Asudə vaxtlarımda daha çox idmanla məşğul olur və kitab oxuyuram. Dostlarıma da məsləhət görürəm ki, kitabla yaxından dost olsunlar. İndiyə kimi bir çox kitabları oxumuşam. Onlardan Süleyman Sani Axundovun “Qorxulu nağıllar”, “İki dost, iki düşmən”, “Molla Nəsrəddin Bakıda”, “Qaranlıqdan işığa”, Homerin “Odisseya”, Elçinin “Nəvə”, “Ağ dəvə”, “Mahmud və Məryəm”, Hans Xristian Andersenin “Qar qızı”, “Kibritsatan qız”, “Homerin qəbrində bitən bir çiçək” və başqalarının adlarını çəkə bilərəm.



“Kitab bilik mənbəyidir” adlı müsabiqədə ikinci yerə çıxmağım üçün ədəbiyyat müəllimimə və məktəbin kitabxanaçısına minnətdaram. Mütaliəmdə onların böyük rolu var. Onların tövsiyələrinə əməl etməsəydim, belə uğur qazana bilməzdim.

✍ **Muxtar MƏMMƏDOV**

## Ümumdünya Hemofiliya Günü Naxçıvanda qanvermə aksiyası ilə qeyd olunub

***17 aprel dünyanın 116 ölkəsində Hemofiliya Günü kimi qeyd olunur. Məqsəd ictimaiyyətin diqqətini hemofiliyalı xəstələrin problemlərinə cəlb etməkdir.***



Muxtar respublikamızda Naxçıvan şəhəri və rayonlar üzrə hemofiliyalı və talassemiyalı xəstələr dispanser qeydiyyata alınıb, onlara əlillik qrupları təyin olunub. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasının Hematoloji şöbəsində 67 nəfər hemofiliyalı, 28 nəfər talassemiyalı xəstə qeydiyyatda durur.

Ötən ilin dekabr ayında ölkə Prezidentinin iştirakı ilə istifadəyə verilən Naxçıvan Muxtar Respublika Xəstəxanasında Mərkəzi qan bankı şöbəsinin yaradılması qana ehtiyacı olan xəstələrin, o cümlədən hemofiliyalı və talassemiyalı xəstələrin müntəzəm olaraq qanla (eritrosit kütləsi ilə), digər qan komponentləri ilə təminatında yeni mərhələnin başlanğıcına çevrilmişdir. Mərkəzi qan bankı növbəlilik əsasında 24 saat fəaliyyət göstərməklə təkcə Naxçıvan Muxtar Respublika Xəstəxanasını deyil, həm də digər səhiyyə müəssisələrini lazım olan qan, plazma, eritrosit və trombosit kütləsi ilə təchiz edəcəkdir. Hazırda hemofiliyalı və talassemiyalı xəstələr üçün qanvermə aksiyalarının keçirilməsi bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olmaqla, şəfqət və humanizmin parlaq təcəssümüdür.

Belə tədbirlərdən biri aprelin 15-də Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim, orta tibb işçiləri və texniki heyətinin iştirakı ilə keçirilmişdir. Donorların müayinəsini və qan götürülməsini həyata keçirən Hematoloji şöbənin müdiri Xalidə Bağırova ölkəmizdə qan köçürülməsinə ehtiyacı olan xəstələrin müalicəsinə göstərilən dövlət qayğısından, bu sahədə həyata keçirilən layihələrdən danışıb. Qeyd olunub ki, hemofiliyalı xəstələrə dövlətimiz tərəfindən çox böyük diqqət və qayğı göstərilir. “Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanunu, onun tətbiq edilməsi barədə Prezident İlham Əliyevin Fərmanı, Nazirlər Kabinetinin təsdiq etdiyi 2006-2010-cu illər üçün “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı” və 2011-2015-ci illəri əhatə edən Tədbirlər Proqramı bunun bariz nümunəsidir. Bununla yanaşı, ölkə başçısı 10 fevral 2015-ci il tarixli Sərəncamı ilə “Talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nı təsdiq edib. Bu proqramların məqsədi hemofiliyalı xəstələrə göstərilən tibbi yardımın keyfiyyətinin artırılması, həyat şəraitinin yaxşılaşdırılması, xəstələrdə əlillik və ölümün azaldılması, hemofiliyanın fəsadlarının diaqnostikası, müalicə və profilaktikasının təkmilləşdirilməsi, xəstələrdə qanaxmanın profilaktikası məqsədilə faktor preparatları ilə müalicənin təşkili edilməsi və sair kimi tədbirlər görməkdən ibarətdir. Hemofiliyalı insan düzgün və vaxtlı-vaxtında müalicə alarsa, sağlam insan nə qədər yaşayarsa, o qədər yaşayar. Çünki təhlükəsiz qandan istehsal olunmuş preparatlarla müalicə xəstələri bütün problemlərdən sığortalayır.

Son illərdə xəstəliyin müalicəsi və diaqnostikası istiqamətində görülən mühüm işlər, həyata keçirilən tədbirlər bu xəstələrin dərman preparatlarına ehtiyacının tam ödənilməsinə, onların sağlamlıq vəziyyətinin yaxşılaşmasına imkan yaradıb. Xəstələrin müalicəsinin müasir səviyyədə təşkili, radikal müalicə üsulları sayəsində hemofiliyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, bu xəstəlikdən əlillik və ölüm halları azalıb.

Sonra səhiyyə işçilərindən “Çoxlarının həyatının xilası sənin qanının təhlükəsizliyindədir” devizi altında qan götürülüb. Əvvəlcə donorlardan arterial təzyiq, hepatit, QİÇS və digər yoluxucu xəstəliklərin müayinə edilməsi üçün qan analizləri götürülərək testdən keçirilib. Bir neçə saat davam edən aksiyada Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin də əməkdaşlarının iştirakı ilə 23 nəfər könüllü olaraq qan verib. Donorlardan götürülən qanın qrupları müəyyənləşdirilərək ikili və üçlü torbalarda qan bankına təhvil verilib. Hazırda qan bankında xəstələrə köçürülmək üçün kifayət qədər ehtiyat yaradılıb. Tələbatdan artıq donor qanından plazma hazırlanaraq qan bankında saxlanılacaqdır.

Bundan başqa, muxtar respublikamızda hemofiliyalı və talassemiyalı xəstələrin müalicəsi və profilaktikası üzrə tibbi mütəxəssislər hazırlanır, onların ixtisaslarının artırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Hemofiliya və talassemiyanın fəsadlarından yaranan əlilliyin və ölüm hallarının azaldılması, bu fəsadların profilaktikasının təşkili muxtar respublika səhiyyə sisteminin uğurlarından sayıla bilər.

## Elmi-praktik seminar

***Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəz Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin tələbələri üçün hər ay keçiriləcək elmi-praktik seminarlara start verib. İlk seminar Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilib.***

Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova tədbiri giriş sözü ilə açaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Stomatologiya ixtisası üzrə təhsil alan tələbələrin bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün görülən işlər sırasında elmi-praktik konfrans və seminarların, treninq və təlimlərin mühüm əhəmiyyətini qeyd edib. Bildirilib ki, elmi-praktik seminarların keçirilməsində əsas məqsəd tələbələrin nəzəri və təcrübi biliklərinin vəhdətinə, müstəqil şəkildə praktik fəaliyyətlərinə nail olunmasından ibarətdir. Tələbələr hazırda universitet xəstəxanasında, Stomatoloji Mərkəzdə, digər səhiyyə müəssisələrində müasir stomatoloji qurğularla təchiz edilmiş kabinetlərdə təcrübə dərsləri keçir və praktik vərdişlər qazanır, müxtəlif əməliyyatların yerinə yetirilməsində iştirak edirlər.

Sonra Tibb fakültəsinin tələbələri Ülkər Əsgərova, Ruslan Əliyev, Qəmər Bədəlova, Günel Səfərova slaydların müşayiəti ilə ağız, üz-çənə cərrahiyyəsinin müxtəlif aspektləri, haymorit və onun klinikası, əlamətləri və gedişatı, diaqnoz və müalicəsinə dair məruzələr ediblər. Bildirilib ki, orqanizmin dənizi hesab olunan ağız boşluğu, diş və çənələr insan sağlamlığında mühüm rol oynayır. Üst çənə cibinin iltihabı olan haymorit kəskin zökəm, qrip, qızılca, skarlatina və digər infeksion xəstəliklərin ağırlaşmasından yaranır. Müalicəsi, adətən, konservativdir. Bəzi hallarda kliniki cəhətdən kəskinlərdən az seçilən xroniki formalara keçid mümkündür. Bu halda cərrahi müdaxilə aparılır.

Sonda tələbələrin iştirakı ilə aparılmış rentgenoloji müayinələrin nəticələri müzakirə edilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## İdmançılarımız Azərbaycan çempionatında 10 medal qazanıblar

***Bu həftə Bakıda MMA üzrə gənclər və kişilər arasında keçirilən 5-ci Azərbaycan çempionatına yekun vurulub. Bu yarışda muxtar respublikanı Şərq Döyüşü Sənəti Federasiyasının 13 idmançısı təmsil edib.***

Gənclərin mübarizəsində ən uğurlu nəticəni 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Elşən Əliyev qazanıb. O, bütün rəqiblərinə qalib gələrək ölkə çempionu adına layiq görülüb. Bu çəki dərəcəsində digər idmançımız Ramiz Əhmədov gümüş medal əldə edib. 56 kiloqram çəki dərəcəsində Fərid Məmmədov, 77 kiloqramda Xızır İsmayılov və 84+ kiloqramda Elşən Rzayevin qazandıqları medalların da əyarı gümüş olub.

Kişilər arasında keçirilən döyüşlərdə 5 idmançımız fəxri kürsüdə özünə yer qazanıb. Belə ki, Rəhman Quliyev (61 kiloqram), Elxan Həsənəliyev (70 kiloqram), Səyyad Məmmədov (84 kiloqram) və Təhmasib Hüseynov (93 kiloqram) yalnız final döyüşlərində məğlub olaraq ikinciliklə kifayətləniblər. 70 kiloqram çəki dərəcəsində Fərdi Bağırov isə bürünc medal qazanıb.

Çempionatda çıxış edən Naxçıvan komandası qazandığı medalların sayına görə ölkə birinciliyində yalnız “Qafqaz” komandasından geri qalıb və Azərbaycan çempionatını komanda hesabında ikinci pillədə başa vurub.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

## Sədərək rayonunu zona birinciliyində hansı komanda təmsil edəcək?

Heydərabad qəsəbəsində yaz çağırışına həsr olunmuş “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə Sədərək rayon birinciliyi keçirilib. Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev tədbiri açıq elan edərək bildirib ki, bu cür yarışların keçirilməsi yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Sədərək Rayon Təhsil Şöbəsinin əməkdaşı Nizami Bağırov və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək Rayon Bölməsinin nümayəndəsi Xəyal Zalov çıxış edərək komandalara uğurlar arzulayıblar.

Sədərək Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək Rayon Bölməsinin təşkilatçılığı ilə keçirilən yarışda 4 tam orta məktəbin komandası iştirak edib. Poliatlon dördnövçülük proqramına uyğun olaraq yarış 100 metr qaçış, 2000 metr kross, qumbara atmaq və turnikdə dartınma növləri üzrə keçirilib. Yarışın yekununa əsasən, Heydərabad qəsəbə tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Sədərək kənd 2 nömrəli tam orta məktəbin komandası ikinci, 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olublar.

Sonda yer tutan komandalara təşkilatçıların diplom, fəxri fərman və kubokları təqdim edilib. Qeyd edək ki, birinci yerin qalibi olan Heydərabad qəsəbə tam orta məktəbinin komandası aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Sədərək rayonunu təmsil edəcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 293